AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN RESPUBLİKASINDA MƏDƏNİYYƏT SAHƏSİNİN İQTİSADİYYATA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İxtisas: 5312.01 - "Sahə iqtisadiyyatı"
Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Cəmaləddin Pərviz oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı - 2026

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İnklüziv sosial inkişaf" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Pərviz Səməd oğlu Həsənov

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Anar Əli oğlu Əzizov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Ellada Məhəmməd qızı Xankişiyeva

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Ülkər Sərhad qızı Sadıqova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: iqtisad elmləri doktoru, professor
_____ **Nazim Müzəffər oğlu İmanov**

Dissertasiya Şurasının
Elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru
_____ **Sevda Məmməd qızı Seyidova**

Elmi Seminarın Sədri: iqtisad elmləri doktoru, professor
_____ **Tərbiz Nəsib oğlu Əliyev**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. İqtisadiyyatın qeyri-ənənəvi sahələrindən olan mədəniyyət bir sıra inkişaf etmiş ölkələrdə sosial-iqtisadi inkişafın əsas drayveri kimi çıxış edir. Təsadüfi deyil ki, hazırda mədəniyyət sahəsinin sosial-iqtisadi sferada roluna nəzər yetirdikdə burada əsasən dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin öndə olduğunu və onların mədəniyyətin inkişafına xüsusi əhəmiyyət verdiklərini görmək mümkündür. Bu qəbildən olan ölkələrə əsasən Amerika Birləşmiş Ştatlarını, Böyük Britaniyanı, Fransanı, İspaniyanı, İtaliyanı, Cənubi Koreyanı, Hindistanı, Türkiyəni misal göstərə bilərik.

Qeyd etmək lazımdır ki, mədəniyyət sahəsinin inkişafı əhalinin məşğulluğuna, habelə iqtisadi artıma həm birbaşa, həm də dolayı yolla təsir edir. Həmçinin mədəniyyət sahəsi bir çox inkişaf etmiş ölkələrin siyasi təbliğat maşını rolunu da oynayır. Bu, bir ölkənin mədəniyyətinin digər ölkələrdə təbliği, siyasi ideologiyanın başqa ölkələrə yayılması və bununla da həmin ölkələrə təsir gücünün artırılması və s. kimi formalarda da çıxış edə bilir.

Dünya təcrübəsinə nəzər yetirdikdə mədəniyyət sahəsinin iqtisadiyyata ciddi təsirlərinin olduğunu görə bilərik. Mədəniyyət sahəsi üzrə dünya nəhənglərindən biri Böyük Britaniyada yaradıcı sənayelər 2023-cü ildə ölkə iqtisadiyyatında 124 milyard funt sterlinq (təqribən 154 milyard ABŞ dollarından çox) ümumi əlavə dəyər (ÜƏD) yaratmışdır. Bu isə ümumilikdə Böyük Britaniya iqtisadiyyatının ÜƏD-nin 5.2%-inə bərabərdir[1].

Son illərdə yaradıcı sənayelər (xüsusilə də musiqi, serial, film və s.) üzrə məşhurlaşan Cənubi Koreyada isə 2023-cü ildə mədəniyyət sahəsində istehsal olunan umumi daxili məhsul (ÜDM) təxminən 43.76 trilyon Koreya Vonuna (təqribən 30.27 milyard ABŞ dolları) bərabər olmuşdur[2].

Azərbaycanda isə mədəniyyət sahəsinin iqtisadiyyata təsirini müəyyən etmək üçün statistik məlumtları əldə etmək çətindir. Bunun

[1] House of Lords Library, Creative Industries: Growth, Jobs and Productivity, 2025
[2] Statista.com, Gross domestic product (GDP) from the cultural and other service sector in South Korea from 2011 to 2023

əsas səbəbi isə, mədəniyyətin sahələri üzrə ayrıca statistik göstəricilərin işlənməməsidir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşrlərində mədəniyyət əsasən istirahət, əyləncə və idman sahələri ilə birlikdə verilir ki, bu da mədəniyyət sahəsinin iqtisadiyyatda rolunu müəyyənləşdirməkdə çətinlik yaradır. 2024-cü ilin statistik məlumatlarına əsasən istirahət, əyləncə və incəsənət sahələrindəki fəaliyyətin ÜDM-dəki xüsusi çəkisi cəmi 0.8% təşkil etmişdir[3].

Son dövrlərdə isə ölkəmizdə də mədəniyyət sahəsinin inkişafına dövlət tərəfindən diqqətin artdığını görmək mümkündür. Bakı Beynəlxalq Mədəniyyət Formu və İpək Yolu kimi layihələrin təşəbbüskarı olan ölkəmiz mədəniyyətin qorunması və təşviqinə sadiqliyini nümayiş etdirir. Ölkəmizdə iqtisadi artımı yüksəltməkdən ötrü mədəniyyət resurslarından istifadə üçün geniş imkanlar vardır. Lakin ölkəmizdə mədəniyyət sahələrinin iqtisadiyyata töhfəsi lazımi səviyyədə araşdırılmamışdır. Bu tədqiqatın aparılmasının əsas məqsədi də bu sahədə olan boşluğun aradan qaldırılmasıdır. Eyni zamanda tədqiqatın aparılmasını zəruri edən digər mühüm amil, onun həm iqtisadiyyatı şaxələndirməyi hədəfləyən Azərbaycan hökuməti üçün, həm də tədqiqatçılar üçün mühüm əhəmiyyət kəsb etməsidir. Azərbaycanda mədəniyyət sahələrində çoxsaylı problemlərin mövcudluğunu nəzərə aldıqda bu tədqiqatın aparılmasının vacibliyi bir daha təsdiqlənmiş olur. Bu problemlərə pərakəndə mədəniyyət siyasətinin, mədəniyyət sahələrinin inkişafını ləngidən maliyyə çatışmazlıqlarının mövcudluğu (qeyd edək ki, ölkədə mədəniyyətin əksər sahələri əsasən dövlət dotasiyaları hesabına fəaliyyət göstərir), özəl sahibkarlıq sektoru və mədəniyyət sahələri arasında qarşılıqlı əlaqəni məhdudlaşdıran əngəllər, əhali arasında mədəni savadlılıq səviyyəsinin aşağı olması, mədəniyyət sferasında idarəetmənin qeyri-səmərəliliyi, marketinqin inkişaf etməməsi, bu sahədə təhsilin keyfiyyətinin aşağı olması və s. meydana çıxır.

Dissertasiya Azərbaycanda mədəniyyət sahəsinin inkişafının mövcud vəziyyətini təhlil etməklə onun inkişaf prespektivlərini, gələcəkdə həyata keçirilməsi zəruri olan islahatları müəyyənləşdirir.

[3] Azərbaycan Milli Hesabları, Bakı, 2025, S. 34

Azərbaycan Respublikasında mədəniyyət sahələrinin iqtisadi inkişafa təsirləri ilə bağlı bəzi alim və tədqiqatçılar araşdırmalar aparmışlar. Bunlara misal olaraq "Azərbaycanda mədəniyyətin iqtisadiyyatı: Reallıqlar və perspektiv inkişaf" analitik icmalının müəllifləri N.Müzəffərlini (İmanovu) və T.N.Əliyevi, "Maddi-mədəni irsin sosial-iqtisadi təsirləri" adlı əsərin müəllifi T.Ə.Paşanı, "Sosial sferanın iqtisadiyyatı" adlı dərs vəsaitinin müəllifləri R.S.Abdullayevanı və A.N.Muradovu, "Kreativ iqtisadiyyat və Azərbaycan iqtisadiyyatının inkişafı" adlı əsərin müəllifi K.İmanovu, "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" adlı dərsliyin müəllifi Ə.Q.Əlirzayevi, "Sosial sfera və sosial siyasət" adlı dərs vəsaitinin müəllifi F.P.Rəhmanovu, "Toy iqtisadiyyatı" əsərinin müəllifi Z.F.Məmmədovu misal göstərə bilərik. "Mədəniyyətin iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" beynəlxalq elmi-praktiki konfransda Azərbaycanın bir çox alim və tədqiqatçıları ölkədə mədəniyyətin ayrı-ayrı sahələri haqqında elmi məqalələrlə çıxış etmişlər. Y.Məmmədov, N.Əhmədov, C.Tağıyev və bu kimi tədqiqatçıların məqalələri bunlara misal ola bilər. Dünya alimlərindən isə Hendrik van der Pol, Christiaan De Beukelaer və Kim-Marie Spence, Paul de Gay və Michael Pryke, Thomas B.Lawrence və Nelson William Phillips, Bruno S.Frey, August Einarson mədəniyyət sahəsinin iqtisadi aspektləri üzrə araşdırmalar aparmışlar.

Dünya alimlərinin mədəniyyət sahələrinin iqtisadi tərəfləri və onların inkişafı üzrə apardıqları elmi tədqiqatlar bu sahələrin ölkəmizdə araşdırılması üçün elmi əsas yaradır.

Azərbaycan Respublikası ərazisində mədəniyyət sahəsinin fəaliyyətində mövcud olan problemlərin həllinin aktuallığı dissertasiya işinin mövzusunun, tədqiqat obyektinin və predmetinin seçilməsini, həmçinin tədqiqatın məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini şərtləndirir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycan Respublikasında fəaliyyət göstərən mədəniyyət sahəsidir. Tədqiqatın predmeti isə Azərbaycan Respublikasında mədəniyyət sahəsinin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi ilə

bağlı iqtisadi hadisə və proseslərin nəzəri, metodoloji və praktiki məsələlərinin öyrənilməsi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında mədəniyyət sahəsinin iqtisadiyyata təsirlərinin araşdırılması və mövcud problemlərin həlli yollarının müəyyən edilməsidir. Tədqiqatın həyata keçirilməsində qarşıya qoyulan əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- Mədəniyyət sahəsinin mahiyyətinin və iqtisadi inkişafda rolunun araşdırılması;
- Dövlətin mədəniyyət siyasətinin nəzəri əsaslarının təhlil edilməsi;
- Mədəniyyət sahəsinin inkişafında marketinq və menecementin əhəmiyyətinin müəyyən edilməsi;
- Mədəni iştirakçılığa təsir edən sosial-iqtisadi amillərin ekonometrik qiymətləndirilməsi;
- Azərbaycan Respublikasında mədəniyyətin alt sahələrinin (musiqi, teatr, kinoteatr, film, muzey, vizual incəsənət və s.) fəaliyyətinin araşdırılması və problemlərin müəyyənləşdirilməsi;
- Ölkəmizdə mədəniyyət sahəsinin inkişafında mütərəqqi beynəlxalq təcrübənin istifadə olunması imkanlarının müəyyən edilməsi;
- Azərbaycan Respublikasında mədəniyyət sahəsindəki mövcud iqtisadi problemlərin həlli istiqamətində zəruri islahatların müəyyənləşdirilməsi;
- Mədəniyyət sahəsinin maliyyə təminatının təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi;
- İşğaldan azad edilmiş ərazilərdə mədəniyyət sahəsinin inkişaf perespektivlərinin müəyyənləşdirilməsi.

Tədqiqat metodları. Tədqiqat işində məntiqi ümumiləşdirmə, sorğu, müqayisəli və sistemli təhlil, analitik-statistik təhlil, korrelyasiya və reqressiya metodlarından istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar. Tədqiqat üzrə müdafiəyə aşağıdakı elmi müddəalar təqdim edilmişdir:

- Azərbaycan Respublikasında mədəniyyət sahəsinin iqtisadi potensialı tam reallaşdırılmamışdır və bu sahələrin inkişaf

etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyət daşıyır;

- Azərbaycanda mədəniyyət sahəsinin fəaliyyətinə çoxsaylı (sosial, iqtisadi, institusional və s.) amillər təsir göstərir;
- Ölkəmizdə mədəniyyət sahəsinin iqtisadi səmərəliliyinin yüksəldilməsi institusional koordinasiyanın, peşəkar idarəetmənin və maliyyə hesabatlılığının gücləndirilməsini tələb edir;
- Azərbaycan musiqi sahəsinin inkişafında innovativ həllərdən və rəqəmsal platformalardan istifadənin genişləndirilməsi zəruridir;
- Azərbaycanda film və teatr sahələrində gəlirlərin artırılması imkanları mövcuddur və onların inkişafı yayım, auditoriya ilə əlaqələrin və marketinqin təkmilləşdirilməsi ilə bağlıdır;
- Azərbaycanda mədəniyyət sahəsi üzrə kadr hazırlığının təkmilləşdirilməsinə ehtiyac vardır;
- Azərbaycanda mədəniyyət sahəsinin maliyyələşdirilməsi dövlət dəstəyinin məqsədyönlü istifadəsini və alternativ maliyyələşmə mənbələrinin genişləndirilməsini tələb edir;
- İşğaldan azad edilmiş ərazilərdə mədəni irsin bərpası, mədəni turizm və yaradıcı fəaliyyətlərin inkişafı regional iqtisadi şaxələndirməni dəstəkləyə bilər.

Tədqiqatın elmi yeniliyi.

Tədqiqatın əsas elmi yenilikləri aşağıdakılardır.

- Mədəniyyət sahəsinin Azərbaycan iqtisadiyyatına töhvəsinin qiymətləndirilməsini məhdudlaşdıran informasiya və təsnifat problemləri aşkar edilmişdir;
- Azərbaycanda mədəniyyət sahəsinin idarə edilməsində mövcud olan institusional məhdudiyyətlər sahələr üzrə aparılmış təhlillər əsasında sistemləşdirilmişdir;
- Mədəni iştirakçılığın sosial-demoqrafik və iqtisadi göstəricilərlə əlaqəsi respondent sorğusunun fərdi məlumatları əsasında çoxamilli reqressiya modeli vasitəsilə qiymətləndirilmişdir;

- Respondentlərin mədəni iştirakçılığının emprik qiymətləndirilməsi üçün ziyarət tezliyinə əsaslanan üçpilləli bal göstəricisi tətbiq edilmişdir;
- Respublikada mədəniyyət sahəsinin maliyyələ təminatının genişləndirilməsi və maliyyə mənbələrinin şaxələndirilməsi üzrə mərhələli yanaşma təklif edilmişdir;
- Mütərəqqi beynəlxalq təcrübənin Azərbaycan iqtisadi şəraitinə uyğunlaşdırılması üzrə konkret institusional və iqtisadi istiqamətlər müəyyənləşdirilmişdir;
- Mədəniyyətin alt sahələrinin xüsusiyyətləri nəzərə alınmaqla fərqləndirilmiş inkişaf istiqamətləri müəyyənləşdirilmişdir;
- İşğaldan azad edilmiş ərazilərdə mədəniyyət sahəsinin müqayisəli üstünlük sahəsi olduğunu nəzərə alaraq bu sahəyə əsaslanan regional inkişafın mərhələli istiqamətləri işlənib hazırlanmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat işinin nəzəri əhəmiyyəti mədəniyyət sahəsinin iqtisadi əsaslarının müəyyən edilməsindən ibarətdir. Tədqiqat işinin praktiki əhəmiyəti isə dissertasiya işinin nəticələrinin gələcəkdə mədəniyyət sahəsi üzrə qərarverici qurumlar, xüsusən Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsi, Dövlət Turizm Agentliyi, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Agentliyi tərəfindən istifadə edilərək müəyyən konsepsiyaların hazırlanmasında, həmçinin gələcək elmi araşdırmalarda baza rolunda çıxış etməsindədir.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas müddəaları və nəticələri beynəlxalq və yerli səviyyəli elmi-praktiki konfranslarda şərh və müzakirə edilmişdir.

Elmi işdə əldə olunan nəticələr 3 beynəlxalq və 1 respublika əhəmiyyətli konfrans materialında dərc edilmişdir. Onların sırasına "Mədəniyyətin iqtisadiyyatı: Şuşadan inkişaf impulsaları" Beynəlxalq elmi konfransın materialları (S.181-194, 2022), XVI Beynəlxalq Elmi Araşdırmalar Konfransının materialları (s.51-54, 2023), "12th Baskent Congress on Social Humanities, Adminstrative, and Educational Scienses" Proseeding Book (p.637-649, 2024), Gənc

Tədqiqatçıların VII Respublika Elmi Konfransının materiallarında (s. 231-233, 2024) dərc olunmuş məqalə və tezislər daxildir.

Dissertasiya mövzusu üzrə 5 elmi məqalə dərc edilmişdir. Onlrdan 1-i Qazaxtanda Atyrau Universitenin "Bulletin of the Atyrau University" adlı elmi jurnalında, 4-ü isə Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi jurnallarda çap edilmişdir.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İnklüziv sosial inkişaf" şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş (10115 işarə), üç fəsil (I fəsil 57176 işarə, II fəsil 112230 işarə, III fəsil 60234 işarə), nəticə (10170 işarə), 136 ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 2 şəkil, 24 qrafik, 11 cədvəldən istifadə edilmişdir. İşin ümumi həcmi 179 səhifədən (252078 işarədən) ibarətdir.

DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

GİRİŞ
I FƏSİL. MƏDƏNİYYƏT SAHƏSİNİN İQTİSADİ İNKİŞAFDA ROLUNUN NƏZƏRİ ƏSASLARI
1.1. Mədəniyyət sahəsinin mahiyyəti və təsnifatı
1.2. Mədəniyyət sahəsinin sosial-iqtisadi əhəmiyyəti
1.3. Dövlətin mədəniyyət siyasətinin nəzəri əsasları
1.4. Mədəniyyət sahəsinin idarə edilməsi, maliyyələşdirilməsi və marketinqi
II FƏSİL. AZƏRBAYCANDA MƏDƏNİYYƏT SAHƏSİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ
2.1. Azərbaycanda mədəniyyət sahasində mövcud problemlər
2.2. Musiqi sanayesinin inkişaf meylləri və iqtisadi effektivliliyinin təhlili
2.3. Kino və teatr sahələrinin fəaliyyətinin qiymətləndirilməsi
2.4. Kitabxana və muzeylərin gəlirlilik səviyyəsinin təhlili
III FƏSİL. AZƏRBAYCANDA MƏDƏNİYYƏT SAHƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ
3.1. Azərbaycandda mədəniyyət sahəsinin mütərəqqi beynəlxalq təcrübə əsasında inkişaf etdirilməsi yolları
3.2. Azərbaycanda mədəniyyət sahəsinin maliyyə təminatının yaxşılaşdırılması istiqamətləri
3.3. İşğaldan azad olunmuş ərazilərdə mədəniyyət sahəsinin inkişaf istiqamətləri
NƏTİCƏ
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI
ƏLAVƏLƏR

İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiqatın aktuallığı və öyrənilmə dərəcəsi, onun predmet və obyekti, məqsədləri və vəzifələri, müdafiəyə çıxrılmış elmi müddəalar, elmi yenilik, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, bundan başqa dissertasiyanın əsas müddəalarının aprobasiyası təqdim olunmuşdur.

"Mədəniyyət sahəsinin iqtisadi inkişafda rolunun nəzəri əsasları" adlı ilk fəsildə mədəniyyət sahəsinin mahiyyəti və təsnifatı araşdırılmış, mədəniyyət sahəsinin sosial-iqtisadi əhəmiyyətinə toxunulmuş, dövlətin mədəniyyət siyasətinin elmi-nəzəri əsasları müəyyən edilmiş və adı çəkilən sahənin idarə edilməsi, marketinqi və maliyyələşmə üsulları öyrənilmişdir.

Mədəniyyət sahəsi hazırda beynəlxalq aləmdə xüsusi diqqət yetirilən, bir çox ölkələrdə və həmçinin beynəlxalq təşkilatlar tərəfindən xüsusi siyasətə malik olan iqtisadi və mədəni subyektə çevrilmişdir. YUNESKO-nun Statistika İnstititu mədəniyyət sahəsinin tərifini belə vermişdir: *"Mədəniyyət sahəsi, əsas məqsədi mədəni, bədii və irs mənşəli fəaliyyətlərdən əldə edilən malların, xidmətlərin və məzmunun fəaliyyətinin istehsalı və ya çoxaldılması, təşviqi, paylanması və ya kommersiyalaşdırılması olan mütəşəkkil fəaliyyət sahələridir"*[4]. Bu yanaşma mədəni-bədii və irs xarekterli məhsullara, xidmətlərə və fəaliyyətlərə diqqət yetirməklə onların keçmişdən gələn və ya hazırda insan fəaliyyətinin yaradıcılığından qaynaqlandığını vurğulayır. Həmçinin bu tərifə əsasən mədəniyyət sahəsi təkcə insan yaradıcılığının məhsulu və sənayenin təkrar istehsalı ilə məhdudlaşmır, həm də mədəniyyət və yaradıcı məhsulların yaradılmasına və yayılmasına xidmət edən digər fəaliyyət sahələrini də əhatə edir.

Bunlarla yanaşı, dissertasiyada mədəniyyət sahəsi və yaradıcı sənaye anlayışlarının fərqləri, mədəniyyət sahəsinin iqtisadi ədəbiyyatda istifadəsinin tarixi barədə geniş məlumatlar əks olunmuşdur.

Mədəniyyətin sosial və iqtisadi təsirlərini ölçmək məsələsinə

[4] Unecco.org, What do we mean by Cultural and Creative Industries?

gəldikdə, burada ilk olaraq mədəniyyət və yaradıcı sahələri bir-birindən ayırmaq lazımdır. Lakin, bu onun qiymətləndiriliməsində ortaya çıxan yeganə problem deyil. Məsələn, inkişaf etməkdə olan ölkələrdə mədəniyyət sahəsi barədə statistik məlumatların əldə edilməsi YUNESKO üçün əsas problemlərdən biridir. Bu isə özlüyündə həmin ölkələrdə mədəniyyət və yaradıcı (kreativ) sənayelərin mövcud vəziyyətinin qiymətləndirilməsi məsələsini çətinləşdirir ki, ölkəmiz də bu siyahıya daxil edə biləcəyimiz dövlətlərdən biridir. Bu səbəbdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə təhlil apararkən fərqli yanaşmalardan istifadə etmək gərək olur.

Dissertasiyada öz əksini tapan digər məqam isə mədəniyyət siyasəti anlayışıdır.

Hər bir ölkənin yürütdüyü mədəniyyət siyasəti onun əhalisinin mədəniyyətindən, adət-ənənələrindən asılı olaraq dəyişə bilər. Ümumilikdə dövlətlərin mədəniyyət siyasətinə 4 fərqli yanaşması özünü göstərir:

1. Mədəniyyət siyasəti ümumi planlaşdırmaya inteqrasiya olunur;

2. Dövlət hesab edir ki, xalqa qarşı öz üzərinə götürdüyü öhdəlikdən irəli gələrək mədəniyyətə görə məsuliyyət daşıyır və bu vəzifəni uğurla yerinə yetirə bilməkdən ötrü onu tam şəkildə həyata keçirə bilməyən özəl təşəbbüsü əvəz etmək onun borcudur;

3. Mədəniyyət sahəsində fəaliyyətin vahidliyə endirilməsi və sənətdəki mübahisəli elementlərin zərərsizləşdirilməsi təhlükəsi olduğundan mədəniyyət sahələrin mərkəzləşdirilmiş qaydada birbaşa idarə edilməsindən ehtiyat edərək dövlətin buradakı rolunu maliyyə yardımları ilə məhdudlaşdırmağa üstünlük verilir;

4. Bəzi inkişaf etməkdə olan cəmiyyətlərdə milli şüurun gücləndirilməsi və bununla da həm insanların mənəvi dəyərlərinə, həmçinin müasir dünyanın tələblərinə cavab verən orjinal mədəniyyətin inkişafına kömək məqsədilə mədəniyyət sahələrinin inkişafında dövlətin müdaxiləsinin vacibliyini vurğulayır[5].

[5] Unecdoc.unesco.org, Cultural policy a preliminary study, published by UNESCO, Paris, 1969

Mədəniyyət sahəsində maliyyə mənbələrinin müəyyən edilməsi, maliyyələşmə mexanizmində yeni meyllərin, həmçinin mədəniyyət sahəsində marketinqin rolu, onun istiqamətləri barədə təhlillər və araşdırılmalar aparılmışdır.

Ümumilikdə götürdükdə isə Azərbaycanda mədəniyyət sahəsinin idarə edilməsində yaranmış boşluqlar, uzun illər bu sahəyə lazımi marağın olmaması və əhalinin bu tip sahələrə olan diqqətinin azlığı bu sənaye növlərinin inkişafdan qalmasına və ya təmamilə yox olmasına səbəb olmuşdur. Eyni zamanda bəzi mədəniyyət sahələri düzgün təbliğatın və münbit biznez mühitinin olmaması səbəbindən ölkəmizdə inkişaf edə bilmir. Buradakı əsas boşluqlardan biri də düzgün təhsil sistemin yaradılmamasıdır. Həmçinin milli mentalitet məsələləri bəzi hallarda mədəniyyət sahələrinin (pop musiqi sənayesi, dəb sənayesi və s.) inkişafının qarşısını kəsən əsas məqamlardan biri kimi çıxış edir.


"Azərbaycanda mədəniyyət sahəsinin mövcud vəziyyətinin qiymətləndirilməsi" adlı ikinci fəsildə ölkədə mədəniyyət sahələrinin mövcud problemləri araşdırılmış, əhalinin bu sahələrə olan münasibəti keçirilmiş sorğu əasında təhlil edilmiş, musiqi sənayesinin inkişaf meylləri və iqtisadi effektivliliyinə toxunulmuş, kino və teatr sahələrində iqtisadi səmərəliliyin mövcud vəziyyəti müəyyən edilmiş və kitabxana və muzeylərin gəlirlilik səviyyəsinin təhlili aparılmışdır.

Mədəniyyət siyasətinin formalaşdırılması və onun düzgün idarə edilməsi ölkə mədəniyyətinin həm mənəvi, həm də sosial-iqtisadi tərəflərinin inkişafı istiqamətində müstəsna rol oynayır. Bunu nəzərə almaqla mədəniyyət sahələrinin iqtisadiyyata təsirini bir neçə formada müəyyənləşdirməyə ehtiyac vardır. Bu formalar 2018-ci ildə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yardıcılıq Proqramının dəstəyi ilə hazırlanmış "UNESCO İnkişaf Göstəriciləri üçün Mədəniyyət – Azərbaycan haqqında analitik hesabat"da mədəniyyətin iqtisadiyyata təsiri istiqamətində 3 formada qeyd edilmişdir:

- Mədəniyyət müəssisələrinin ÜDM-ə qatdığı dəyər;
- Mədəniyyət sahəsində məşğulluq;

o Mədəniyyət üzrə məişət xərcləri[6].

Ölkəmizdə mədəniyyət sahəsinin ÜDM-ə təsirinin müəyyən edilməsində müraciət edə biləcəyimiz əsas mənbə Dövlət Statistika Komitəsi tərəfindən tərtib edilmiş Milli Hesablar Sistemidir. Lakin burada mədəniyyət sahəsi üzrə ayrıca göstəricilər verilmir və incəsənət və əyləncə sahələri ilə birgə təqdim edilir. Azərbaycan Milli Hesablarının 2024-cü il buraxılışında incəsənət və əyləncə sahələrinin ümumi daxili məhsul istehsalı aşağıdakı qrafikdə verilmişdir (Qrafik 1).



Qrafik 1. **İstirahət, əyləncə və incəsənət sahələrinin ümumi daxili məhsul istehsalı, cari qiymətlərlə, milyon manatla**
Mənbə: *Azərbaycan Milli Hesabları – Bakı – 2025 – s. 34 əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən göründüyü kimi istirahət, əyləncə və incəsənət sahələrinin ÜDM-dəki payında 2019-2021-ci illərdə kiçik həcmli artma və azalma qeydə alınmış, lakin 2022-ci ildə ciddi yüksəliş müşahidə olunmuşdur. Ən aşağı göstərici 2020-ci ildə baş vermişdir ki, bunu da COVİD-19 pandemiyası ilə əlaqələndirmək olar. Onu da qeyd etmək lazımdır ki, 2021-ci ildə pandemiyanın davam etməsinə baxmayaraq bu fəaliyyət sahələrinin bu istiqamətlərindəki göstəricisi pandemiyadan əvvəlki göstəricidən 19% daha çox olmuşdur. 2022-ci

[6] Measuring the economic contribution of cultural industries, A review and assessment of current methodological approaches, 2009 Framework for cultural statistics Handbook - No 1, Montreal, 2012

ildəki göstərici özündən əvvəlki göstəricidən 19.4%, 2019-cu ilin göstəricisindən isə 42.2% artıq olmuşdur. 2024-cü ildəki göstərici isə 2023-cü illə müqayisədə 6.3% daha çox olmuşdur. Bundan başqa, 2024-cü ildə iqtisadi fəaliyyət növləri üzrə ÜDM istehsalı 113973.9 milyon manat olmuşdur. Qeyd etmək lazımdır ki, istirahət, əyləncə və istirahət sahələrinin bu göstərici üzrə payı 0.8% təşkil etmişdir.

Azərbaycan Respublikasında əhalinin mədəniyyət sahəsinə münasibəti birmənalı olmamış, əsasən təhsil və mədəni səviyyəsinə görə seçilən əhali qrupu mədəniyyət sahəsinin xidmətlərindən daha çox istifadə etmişdir. Günümüzdə də bu tendensiya davam etməkdədir. Xüsusilə həm ali təhsil ocaqlarının, həm də mədəniyyət müəssisələrinin iri şəhərlərdə, xüsusilə də paytaxt Bakıda cəmləşməsi əhalinin mədəniyyət müəssisələrinə olan münasibətində öz əksini tapmışdır. Bu tip amillər, həmçinin yerlərdəki əhalinin mədəni səviyyəsinə də təsirsiz ötüşmür.

Ölkəmizdə əhalinin mədəniyyət sahəsinə münasibətinin müəyyən edilməsi məqsədilə sorğu keçirmişik. Sorğuda ölkəmizin müxtəlif iqtisadi regionlarından olan 568 nəfər iştirak etmişdir. Sorğuda mövcud 14 iqtisadi regiondan on üçündə yaşayan əhali iştirak etmişdir.

Ölkədə əhalinin mədəniyyət sahələrində iştirakçılığını müəəyən etmək məqsədilə qurduğumuz ilk model "Əhalinin mədəni iştirakçılığı və mədəni istehlak indeksi modeli" adlanır. Modelin qurulmasında əsas məqsədlər əhalinin mədəniyyət fəaliyyətində iştirak səviyyəsini müəyyən etmək, mədəni istehlak meylini müəyyənləşdirmək və mədəniyyət sahəsinin sosial potensialını ölçməkdir. Sorğuda əhalinin mədəniyyət müəssisələrinə getmə tezliyi, mədəni istirahət xərcləri, mədəni fəaliyyət seçimi, qiymət siyasətinə münasibət və təhsil və yaş göstəriciləri mövcuddur. Bütün bu informasiyaları nəzərə alaraq biz "Cultural Participation Index"ni (CPI – Mədəni İştirakşılıq İndeksi) yarada bilərik. İndeksin nəticəsinin akademik yanaşmasını müəyyən etmək məqsədilə aşağıdakı kimi CPI bal sistemi tətbiq edə bilərik.

İştirak göstəricisi 1–3 bal arasında kodlaşdırılmışdır: 1 bal – mədəniyyət müəssisələrinə ümumiyyətlə getməyənlər, 2 bal – arasıra gedənlər, 3 bal – tez-tez gedənlər. Buna uyğun olaraq CPI

göstəricisinin mümkün qiymətləri 1,00–3,00 intervalında formalaşır. Qiymətləndirmə zamanı 1,00–1,66 – aşağı iştirak, 1,67–2,33 – orta iştirak, 2,34–3,00 – yüksək iştirak səviyyəsi kimi qəbul edilmişdir.

Sorğu nəticələrinə əsasən, 568 respondentdən 89 nəfər (15,7%) mədəniyyət müəssisələrinə tez-tez, 334 nəfər (58,8%) ara-sıra, 145 nəfər (25,5%) isə ümumiyyətlə getmədiyini bildirmişdir.

Mədəni İştirakçılıq İndeksi aşağıdakı düsturla hesablanmışdır:

CPI=\frac{\sum(W_i\times M_i)}{M}

Burada (W_i) – iştirak səviyyəsinə verilmiş balı, (M_i) – həmin səviyyə üzrə respondentlərin sayını, (M) – respondentlərin ümumi sayını ifadə edir.

CPI=\frac{(3\times89)+(2\times334)+(1\times145)}{568}

=1,9014\approx1,90

Beləliklə, CPI 1,90 olmuş və 1,67–2,33 intervalında yerləşdiyinə görə əhalinin mədəni iştirak səviyyəsi orta kimi qiymətləndirilmişdir.

Sorğu əsasında mədəni iştirakçılığa təsir edən amillərin təhlili

Tədqiqat çərçivəsində əhalinin mədəni fəaliyyətlərdə iştirak səviyyəsinin müəyyənləşdirilməsi və bu iştirakçılığa təsir edən əsas amillərin qiymətləndirilməsi məqsədilə respondent sorğusunun nəticələri təhlil edilmişdir. Sorğu nəticələrinin daha sistemli şəkildə qiymətləndirilməsi üçün statistik və ekonometrik yanaşmadan istifadə olunmuşdur. Təhlilin əsas məqsədi respondentlərin mədəniyyət müəssisələrinə marağını formalaşdıran sosial və iqtisadi amillərin müəyyən edilməsindən ibarət olmuşdur.

Sorğuda respondentlərə teatr, muzey, sərgi, konsert və digər mədəniyyət müəssisələrinə müraciət tezliyi ilə bağlı suallar təqdim edilmişdir. Əldə olunan cavablar əsasında respondentlərin mədəni iştirak səviyyəsini əks etdirən göstərici formalaşdırılmışdır. Statistik təhlilin aparılması məqsədilə cavablar şərti olaraq ballarla qiymətləndirilmişdir. Belə ki, mədəniyyət müəssisələrinə getmədiyini bildirən respondentlər üçün “1”, ara-sıra iştirak etdiyini bildirənlər üçün “2”, tez-tez iştirak etdiyini bildirən respondentlər üçün isə “3” bal müəyyən edilmişdir. Bu yanaşma respondentlərin mədəni iştirak səviyyəsinin müqayisəli şəkildə qiymətləndirilməsinə

imkan yaratmışdır.

Mədəni iştirakçılığa təsir göstərə biləcək amillər kimi respondentlərin təhsil səviyyəsi, yaş göstəricisi, mədəni fəaliyyətlərə çəkilən xərclər, qiymət siyasətinə münasibət və mədəniyyət müəssisələrinin fəaliyyətindən məmnunluq səviyyəsi təhlilə daxil edilmişdir. Dəyişənlərin seçilməsi zamanı mədəni iştirakçılığın həm sosial-demoqrafik, həm də iqtisadi amillərlə əlaqəli olması nəzərə alınmışdır.

Aparılmış təhlildə respondentlərin mədəni iştirakçılıq səviyyəsi asılı dəyişən kimi qəbul edilmiş, digər göstəricilər isə müstəqil dəyişənlər kimi modelə daxil edilmişdir. Təhlil zamanı dəyişənlər arasındakı qarşılıqlı əlaqələrin istiqaməti və təsir səviyyəsi qiymətləndirilmişdir. Bunun üçün çoxamilli regresiya yanaşmasından istifadə olunmuşdur.

Tədqiqat çərçivəsində aşağıdakı modeldən istifadə olunmuşdur:

$$Participation=\beta0+\beta1Expenditure+\beta2Education+\beta3Age+\beta4Price\ Satisfaction+\beta5Institution\ Satisfaction+\varepsilon$$

Burada iştirakçılıq göstəricisi respondentlərin mədəni fəaliyyətlərdə iştirak səviyyəsini, digər dəyişənlər isə bu iştirakçılığa təsir edə biləcək amilləri ifadə edir.

Model üzrə hesablamalar Ordinary Least Squares (OLS – Adi və ən kiçik kvadratlar üsulu) üsulu vasitəsilə aparılmışdır. Hesablama zamanı respondentlərin verdiyi cavablar rəqəmsal formada kodlaşdırılmış və dəyişənlər arasındakı əlaqənin istiqaməti ilə təsir səviyyəsi statistik proqram vasitəsilə müəyyən edilmişdir. Regresiya əmsalları dəyişənlərin mədəni iştirakçılığa təsir gücünü göstərmişdir. Statistik əhəmiyyətlilik səviyyəsi isə p-value göstəricisi əsasında qiymətləndirilmişdir. Təhlildə $p < 0.05$ olan nəticələr statistik baxımdan əhəmiyyətli hesab edilmişdir.

Cədvəl 1.

Mədəni iştirakçılığa təsir edən amillər üzrə çoxamilli reqressiya modelinin nəticələri

Müstəqil dəyişənlər	**B**	**Std. Error**	**t**	**p-value**
Mədəni fəaliyyətlərə çəkilən	0.061	0.063	0.967	0.334

xərclər				
Təhsil səviyyəsi	0.111	0.043	2.585	0.010
Yaş	0.089	0.044	2.019	0.044
Qiymət siyasətindən məmnunluq	0.062	0.048	1.295	0.196
Mədəniyyət müəssisələrinin fəaliyyətindən məmnunluq	0.092	0.051	1.803	0.072

Cədvəl 1-dən göründüyü kimi, təhsil səviyyəsi və yaş göstəricisi mədəni iştirakçılıqla müsbət və statistik baxımdan əhəmiyyətli əlaqəyə malik olmuşdur. Təhsil səviyyəsi üzrə reqressiya əmsalı 0,111 ($p = 0,010$), yaş göstəricisi üzrə isə 0,089 ($p = 0,044$) təşkil etmişdir.

Mədəniyyət müəssisələrinin fəaliyyətindən məmnunluq göstəricisinin təsiri müsbət olsa da, 5%-lik əhəmiyyətlilik səviyyəsində statistik baxımdan əhəmiyyətli olmamışdır ($B = 0,092$; $p = 0,072$). Mədəni fəaliyyətlərə çəkilən xərclər və qiymət siyasətindən məmnunluq dəyişənləri üzrə də statistik baxımdan əhəmiyyətli nəticə əldə edilməmişdir.

Model üzrə $R^2 = 0,057$ təşkil etmişdir ki, bu da mədəni iştirakçılıqdakı dəyişmələrin 5,7%-nin modelə daxil edilmiş dəyişənlərlə izah edildiyini göstərir. Modelin ümumi nəticəsi statistik baxımdan əhəmiyyətli olmuşdur ($F(5; 562) = 6,794$; $p < 0,001$).

Ümumilikdə aparılmış təhlil göstərmişdir ki, Azərbaycanda əhalinin mədəni fəaliyyətlərdə iştirak səviyyəsinin formalaşmasında sosial-demoqrafik amillər xüsusi rol oynayır. Xüsusilə təhsil səviyyəsi və yaş göstəricisi mədəni iştirakçılığın əsas determinantları kimi çıxış edir. Bu baxımdan mədəniyyət siyasətinin həyata keçirilməsi zamanı maarifləndirmə, təhsil və əhalinin mədəni davranışına təsir edən sosial amillərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işində Azərbaycan musiqi sənayesinin rəqəmsal transformasiyası təhlil edilmiş, onlayn platformaların bazara təsiri qiymətləndirilmişdir.

Film sənayesi musiqi və dəb sənayesi ilə birlikdə mədəniyyət

sahəsi arasında ən gəlirli sektorlardan biri kimi çıxış edir. Belə ki, həm kino, həm də teatr komanda işi olmaqla özündə bir çox sahəni birləşdirir. Aktyorlar, rejissorlar, ssenaristlər, işıqçılar, qrim ustaları, geyim dizaynerləri və stilistlər, səs rejissorları, prodyüsserlər və s. kimi peşə sahibləri hər iki sahədə fəaliyyət göstərirlər. Bütün bunları nəzərə alaraq, dissertasiya işində film sahəsinə xüsusi diqqət yetirilmiş, Dövlət Statistika Komitəsinin hesabatları əsasında təhlillər aparılmışdır.

Burada film sənayesi ilə yanaşı teatr və kitabxanaların fəaliyyəti istiqamətində də araşdırmalar aparılmış və onların nəticələri təhlil edilmişdir.

"Azərbaycanda mədəniyyət sahəsinin inkişaf etdirilməsi istiqamətləri" adlı sonuncu fəsil 3 paraqrafdan ibarətdir və burada beynəlxalq təcrübə əsasında mədəniyyət sahəsinin ölkəmizdə inkişaf etdirilməsi istiqamətlərinin müəyyən edilmiş, mədəniyyət sahəsinin maliyyə təminatının yaxşılaşdırılması istiqamətlərinin öyrənilməsi və işağaldan azad edilmiş ərazilərdə mədəniyyət sahəsinin inkişaf meyllərinə toxunulmuşdur.

Mədəniyyət sahəsinin dünya təcrübəsi, xarici ölkələrdə onun iqtisadiyyata təsirini müəyyən etmək xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə dünya təcrübəsini öyrənmək, onun inkişafında milli mədəni iqtisadiyyat modelinin qurulmasına və inkişaf etdirilməsinə səbəb ola bilər. Hazırda Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Cənubi Koreya kimi İEÖ və Türkiyə, Braziliya, Hindistan kimi yeni sənayeləşmiş ölkələr ən qabaqcıl ölkələr hesab edilir. Lakin xatırlatmaq lazımdır ki, mədəniyyət sahəsi qeyd etdiyimiz kimi geniş sahələri əhatə edir. Bunun nəticəsidir ki, adını sadaladığımız ölkələr də mədəniyyətin spesifik bir və ya bir neçə sahəsi üzrə ixtisaslaşmış və dünyada o sahə üzrə ən inkişaf etmiş ölkələr siyahısına daxil edilirlər. Məsələn, ABŞ, Böyük Britaniya və Cənubi Koreya kimi ölkələr öz film və musiqi sənayeləri, həmçinin adını sadaladığımız ilk iki ölkə İtaliya və Fransa ilə birgə dəb sənayesinin inkişafına, Türkiyə, Braziliya və Hindistan öz film və serial sənayelərinin inkişafına görə qabaqcıl yerləri tuturlar. Son dövrlər isə bu ölkələrin siyahısına bəzi İEOÖ-lər də qoşulmaqdadırlar.

Azərbaycan Respublikası ərazisində mədəniyyətin ayrı-ayrı alt

sahələrinin mövcud vəziyyətinə nəzər yetirdikdə burada bir çox boşluqların olduğu, mədəni fəaliyyətlərin beynəlxalq standartlar çərçivəsindən kənar inkişaf meylləri, bu sahədə həm dövlət, həm də ictimai və fərdi səviyyədə idarəetmənin aşağı səviyyədə inkişafı və bu kimi bir çox amillərin mövcudluğu gözə çarpır. Azərbaycanda mədəniyyət sahələrinin mövcud vəziyyətinin araşdırılmasında qarşıya çıxan problemləri əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:


- Mədəniyyət sahəsinin inkişafında dövlətin ayrıca mədəniyyət siyasətinin mövcud olmaması və burada yaranmış pərakəndə idarəçilik sisteminin mövcudluğu;
- Ölkədə mədəniyyət sahəsi üzrə təhsilin aşağı keyfiyyət göstəricisi və bunun nəticəsində bu sahələrdəki mütəxəssis qıtlığının yaranması;
- Adı çəkilən sahələrdə menecment və marketinq xidmətlərinin aşağı səviyyəsi;
- Mədəniyyət sahəsinin əksər hissəsinin əsasən dövlət büdcəsindən asılı vəziyyətdə inkişafı və burada ortaya çıxan maliyyələşmə problemlərinin mövcudluğu;
- Aşağı gəlirlilik səviyyəsi;
- Əhali arasında mədəni savadlılıq dərəcəsinin aşağı olması və əhalidə bu sahələrə olan marağın azalması;
- Mədəniyyət sahəsinin inkişafında innovativ həllərdən istifadənin aşağı səviyyəsi və s.

Dissertasiyada mədəniyyət sahəsinin inkişafında Cənubi Koreya modeli əsas götürülməklə, bir neçə ölkənin bu sahədəki təcrübəsinin təhlili əsasında onun Azərbaycanda inkişaf istiqamətləri müəyyən edilmişdir.

Dissertasiyada mədəniyyət sahəsinin fəaliyyətində istifadə olunan maliyyə mənbələrinə toxunulmuşdur.

Qeyd etdiyimiz kimi, ölkədə mədəniyyət sahəsini maliyyələşdirən əsas tərəf qismində dövlət dəstəyi dayanır. Mədəniyyət sahəsinin dəstəklənməsi, inkişaf etdirilməsi istiqamətində görülən işlər çərçivəsində dövlət mədəniyyət sahəsinə hər il dövlət büdcəsi,

Prezidentin ehtiyat fondundan müxtəlif ayırmalar həyata keçirir. Bu tip maliyyə yardımları, dotasiyalar əsasən ölkədə maliyyə siyasətinin idarə edilməsindən məsul olan Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin vasitəsilə həyata keçirilir. Təəssüflər olsun ki, ölkədə mədəniyyət sahəsinə ayrılan vəsaitlərin statistik məlumatları ayrı-ayrılıqda mədəniyyət sahəsi üzrə deyil "Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən fəaliyyətlər üzrə dövlət büdcəsinin xərcləri" adlı statistik bölmədə verilir. Bu isə mədəniyyətin müxtəlif alt sahələrinə ayrılan məbləğlər barədə səhih statistik məlumat əldə etməyə, bunları təhlil etməyə tam şəkildə imkan vermir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində yuxarıda qeyd etdiyimiz bölmə mədəniyyət sahəsinə ayrılan vəsaitin təhlil edilməsi üzrə yeganə statistik mənbə kimi çıxış edir. Ölkəmizdə müstəqillik dövründə mədəniyyət sahəsinə ayrılan vəsaitə nəzər salaq (Qrafik 2).



Qrafik 2. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən fəaliyyətlər üzrə dövlət büdcəsinin xərcləri, milyon manat

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/education/) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən də bəlli olur ki, qeyd olunmuş sahələr üzrə dövlət xərcləri ilbəil artmışdır. Təsadüfi deyil ki, kateqoriya üzrə dövlət xərcləri müstəqilliyin bərpa edilməsi dövründəki 5.1 milyon

manatdan 2025-ci ildə 527.1 milyon manata yüksəlmişdir. Qeyd edək ki, 2025-ci ildə dövlət büdcəsinin ümumi xərcləri 38604.6 milyon manat olmuşdur. Buradan bu nəticəyə çıxamq olar ki, qeyd edilən ildə mədəniyyət, incəsənət, informasiya,bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən fəaliyyətlər üzrə dövlət büdcəsi xərcləri ümumi xərclərin 1.4%-ni təşkil etmişdir. Lakin, qeyd etmək lazımdır ki, bu rəqəm təkcə mədəniyyət sahəsini yox, kateqoriyada adı çəkilən bir neçə sahəni (informasiya, bədən tərbiyəsi və digər sahələr) əhatə edir. Bu halda, mədəniyyət sahəsinə çəkilən xərclərin əslində 1%-dən belə aşağı olduğunu təxmin etmək olar.

Mədəniyyət sahəsinin maliyyələşməsində xarici təcrübəyə nəzər saldıqda, xüsusilə də inkişaf etmiş ölkələrin təcrübəsində mədəniyyət sahələrinə ayrılan vəsaitin ümumi dövlət xərclərinin 0.5-4% aralığında olduğunu görmək mümkündür. Məsələn, Avropa İttifaqına aid ölkələrin 2022-ci il üzrə mədəniyyət sahəsinə çəkilən xərclər 74.9 milyard Avro (təxminən 78 milyard ABŞ dolları həcmində) olmuşdur ki, bu da ümumi dövlət xərclərinin 0.9%-ni, ÜDM-in isə 0.5%-ni təşkil edir[7]. Estoniya, Latviya, Macarıstan və Malta kimi ölkələrdə isə bu rəqəm ümumi dövlət xərclərinin 2.2%-ni təşkil etmişdir. Qardaş Türkiyə Respublikasında isə 2023-cü ildə mədəniyyət sahəsi üçün xərclər 177.6 milyard türk lirəsi (təxminən 5 milyard ABŞ dolları həcmində) olmuşdur ki, bu da mədəniyyət sahələri üzrə xərclərin 64.3%-i deməkdir[8]. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 2022-ci ildə "Yerli İqtisadiyyat və Məşğulluğun İnkişafı - Mədəniyyət Düzəltmə: YARADICI İNSANLAR, YERLƏR VƏ SAHƏLƏR" adlı hesabatında bu ölkələrdə mədəniyyət üzrə xərclərin ümumi dövlət xərclərinin ortalama 1.2%-ni təşkil etdiyi göstərilmişdir. Lakin, onu da qeyd etmək lazımdır ki, bu ölkələrdə də xərclər eyni olmaya bilir. Məslən, Skandinaviya ölkələrində mədəniyyət sahələri üzrə dövlət xərcləri əsasən 1.5-2% aralığında olduğu halda, ABŞ-da bu 0.5% təşkil edir. Bunun əsas səbəbi isə ABŞ-da mədəniyyət sahəsinin əsasən özəl sektorların

[7] Ec.europe.eu, Government expenditure on cultural, broadcasting, and publishing services, 2025

[8] Turkiye Today, Türkiye's culture sector nearly doubles expenditures in 2023 – 2024

vəsaitləri hesabına və ya şəxsi maliyyə hesabına formalaşmasındadır[9].

Bütün bu sadaladığımız məlumatlardan istifadə etməklə Azərbaycanda mədəniyyət sahəsinin maliyyələşməsi istiqamətində optimal bir variant əldə etmək qismən də olsa mümkün olar. Qeyd etmək istərdim ki, inkişaf etməkdə olan ölkələrdə mədəniyyət sahələrinə ayırmaların ümumi dövlət xərclərinin 1%-ə qədər olması arzu ediləndir. Ölkəmiz də bu qrup ölkələr siyahısında olsa da, onu da nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatının gücü və gəlirləri ilə hansısa 3-cü dünya ölkələrinin iqtisadi gücü ilə müqayisə olunmazdır. Bütün bunları və ölkəmizdə mədəniyyət sahəsinin inkişafının vacibliyini nəzərə alaraq mədəniyyət sahələri üzrə dövlət büdcəsi xərclərinin növbəti 5 il müddətində 1%-ə, daha sonrakı 5 il ərzində isə ən azı 1.5%-ə çatdırılması hədəflənməlidir.

Dissertasiyada işğaldan azad edilmiş ərazilərdə mədəniyyət sahələrinin inkişaf istiqamətlərinə toxunulmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədəniyyət sahələrinin inkişafı istiqamətində bir sıra addımlar atılmalıdır. Hazırda bu ərazilərin əksər hissəsinin erməni vandallığın qurbanına çevrildiyini, Azərbaycan Respublikasının bu ərazilər üzərində idarəetməsinin 30 il müddətində mövcud olmaması yeni reallıqları ortaya çxarır. Bu səbəbdən hökümətin qarşısında duran ilk öhdəlik tarixi-mədəni obyektlərin yenidən invetarizasiyası və qiymətləndirilməsi olmalıdır. Bütün bunlar həm mövcud mədəni abidələrin sayını müəyyən etməyə, müharibə dövrü ərzində zərər görmüş, dağıdılmış abidələrin dəqiq qeydiyatını aparmağa və onların mövcud vəziyyətini qiymətləndirməyə kömək edə bilər. Bu işlərin planlaşdırılması istiqamətində ilkin proses ola bilər. Hazırda Azərbaycan hökumətinin də apardığı işlərdən bəlli olur olur ki, bu istiqamətdə işlər həyata keçirilir. İlkin mərhələnin digər fazası isə ərazidə təhlükəsizliyin bərba edilməsi olmalıdır. Buna zəmin yaradan amil isə təbii ki, ərazilərin düşmən tərəfindən minalarla kirlədilməsidir. Minaların təmizlənməsin həm mədəni mühitin formalaşdırılmasında

[9] OECD, Local Economic and Employment Development (LEED), The Culture Fix, CREATIVE PEOPLE, PLACES AND INDUSTRIES, 2022

vacib məqamlardan biridir. Bu tək mədəni mühitin formlaşadırılması deyil, ümumilikdə ərazidə yaşayışın təminatı üçün vacib faktor kimi qarşıya çıxır. İlkin mərhələnin digər vacib amili isə infrastrukturun bərpasıdır. Buraya mədəniyyət müəssisələrinin (teatrlar, muzeylər, kitabxanalar, konsert müəssisələri və s.) fəaliyyət üçün zəruri olan olan kommunikasiya xətləri, yollar və bu qəbildən olan digər vasitələrin bərpası və qurulmasıdır.

Orta və uzunmüddətli dövrdə yerinə yetirilməli olan məqamlar isə daha çox vaxt və vəsasit tələb edən məqamlar olacaqdır. Bu proses ərzində dağıdılmış mədəniyyət abidələrinin bərpası və rekonstruksiyası həyata keçirilməlidir. Bu proseslərin hətata keçirilməsində isə beynəlxalq ekspertlərin cəlb edilməsi vacib amillərdəndir. Hazırda regionda mövcud olan bir sıra mədəniyyət abidələri (Şuşa, Ağdam şəhərlərində) Heydər Əliyev fodunun Prezidenti Mehriban Əliyevanın göstərişi ilə italyan memarları və digər ölkələrdən olan mütəxəssislər tərəfindən bərpa edilmiş və hələ də rekonstruksiya işləri davam edən abidələr mövcuddur. Lakin, ərazinin geniş olduğunu nəzərə aldıqda burada bərpaya ehtiyacı olan daha çox abidələrin mövcudluğunu görə bilərik. Bu prosesdə isə yerli və xarici şirkətlərin maliyyə dəstəyini cəlb etmək məqsədə uyğun olardı.

Sonrakı proses ərazidə yeni mədəniyyət müəssisələrinin yaradılması və təşkilidir. Bu dövr ərzində müasir, beynəlxalq standartlara cavab verən müəssisələr yaradılmalı və mövcud olan mədəniyyət obyektlərinin fəaliyyəti canlandırılmalıdır. Belə müəssisələr (teatrlar, muzeylər, konsert müəssisələri, kinoteatrlar və s.) ərazidə mədəni həyatın inkişafına öz töhfəsini verə bilər.

Sonrakı mərhələdə mədəni irsin təbliğatı və tanıdılması olmalıdır. İşğaldan azad edilmiş ərazilərin mədəni irsi həm ölkə daxilində, həm də beynəlxalq arenalarda tandılmalıdır. Bunun üçün isə regionun mədəniyyəti, buradakı mədəni abidələr, adət-ənənələri özündə əks etdirən filmlərin çəkilməsi, müxtəlif sərgilərdə region mədəniyyətinin təbliği, bu məqsədlə müxtəlif layihələrin həyata keçirilməsini reallaşdırmaq lazımdır.

Nəticə

Aparılmış tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilmişdir.

- 1. Mədəniyyət sahəsinin müasir iqtisadi sistemdə yalnız sosial və mənəvi funksiyalarla məhdudlaşmadığı, məşğulluğun təmin edilməsi, əlavə dəyərin yaradılması, insan kapitalının inkişafı və iqtisadi artıma təsir baxımından mühüm potensiala malik olduğu müəyyən edilmişdir. Beynəlxalq təcrübənin təhlili göstərmişdir ki, inkişaf etmiş və yeni sənayeləşmiş ölkələrdə mədəniyyət və yaradıcı sahələrin iqtisadi potensialından daha geniş istifadə olunur. Azərbaycanda isə bu potensialın iqtisadiyyatda tam reallaşdırılmadığı müəyyən edilmişdir;
- 2. Ölkəmizdə fəaliyyət göstərən və mədəni fəaliyyətlərlə məşğul olan bir çox fərdi şəxs fiziki şəxs və ya digər formada qeydiyyata alınmır və əsasən fərdi formada vergi ödəmədən fəaliyyət göstərir. Nəticədə düzgün statistikanın aparılması mümkün olmur və mədəniyyət sahələrinin iqtisadiyyata təsirinin müəyyən edilməsinə mənfi təsir göstərir;
- 3. Azərbaycanda mədəniyyət sahəsinin iqtisadiyyata təsirinin kəmiyyət baxımından qiymətləndirilməsinin əsas məhdudiyyətlərindən birinin statistik informasiya bazasının kifayət qədər sistemləşdirilməməsi olduğu müəyyən edilmişdir. Dövlət statistikasında mədəniyyət sahələri bir sıra hallarda istirahət, əyləncə və incəsənət sahələri ilə birlikdə təqdim edilir ki, bu da mədəniyyətin ayrıca iqtisadi fəaliyyət sahəsi kimi qiymətləndirilməsini çətinləşdirir. Mövcud statistik məlumatlara əsasən istirahət, əyləncə və incəsənət sahələrinin ÜDM istehsalı 2023-cü ildə 860.2 milyon manat təşkil etmişdir;
- 4. Mədəniyyət sahəsinin ayrı-ayrı istiqamətlərinin – musiqi, teatr, kino, muzey, kitabxana və vizual incəsənət sahələrinin – inkişaf səviyyələrinin bir-birindən fərqləndiyi müəyyən edilmişdir. Təhlillər göstərmişdir ki, əhalinin daha çox müraciət etdiyi mədəni fəaliyyətlər əsasən konsert və kinoteatrlarla bağlı olduğu halda, kitabxana, teatr və vizual incəsənətin ayrı-ayrı istiqamətlərində iştirak və tələb nisbətən aşağıdır. Bu vəziyyət mədəniyyət məhsullarının və xidmətlərinin keyfiyyəti, əlçatanlığı, cəlbediciliyi və əhalinin mədəni tələbatı ilə əlaqələndirilmişdir;
- 5. Keçirilmiş sorğu əsasında əhalinin mədəni iştirak

səviyyəsini qiymətləndirmək üçün "Mədəni İştirakçılıq İndeksi" (CPI) hesablanmışdır. Hesablamalar nəticəsində CPI göstəricisinin 1,90 olduğu və bunun əhalinin mədəni iştirak səviyyəsinin orta olduğunu göstərdiyi müəyyən edilmişdir. Bu nəticə Azərbaycanda mədəni fəaliyyətlərə müəyyən marağın mövcud olduğunu, lakin mədəni iştirak səviyyəsinin artırılması üçün əlavə imkanların olduğunu göstərir;

- 6. Mədəni iştirakçılığa təsir edən sosial-iqtisadi amillərin ekonometrik qiymətləndirilməsi nəticəsində təhsil səviyyəsi və yaş göstəricisinin mədəni iştirakçılığın əsas determinantları olduğu müəyyən edilmişdir. Təhsil səviyyəsi ilə mədəni iştirakçılıq arasında statistik baxımdan əhəmiyyətli müsbət əlaqə, həmçinin yaş göstəricisi ilə mədəni iştirakçılıq arasında müsbət əlaqə müəyyən edilmişdir. Mədəniyyət müəssisələrinin fəaliyyətindən məmnunluğun təsiri nisbətən zəif, mədəni fəaliyyətlərə çəkilən xərclər və qiymət siyasətinə münasibətin təsiri isə daha zəif olmuşdur;
- 7. Qurulmuş çoxamilli reqressiya modelinin nəticələrinə əsasən model üzrə determinasiya əmsalının $R^2 = 0,057$ olduğu müəyyən edilmişdir. Bu nəticə mədəni iştirakçılığın yalnız modelə daxil edilmiş iqtisadi dəyişənlərlə deyil, sosial-demoqrafik və davranış xarakterli digər amillərlə də formalaşdığını göstərir;
- 8. Mədəniyyət sahəsinin idarə edilməsində institusional koordinasiyanın, müasir menecment və marketinq alətlərindən istifadənin və mədəniyyət məhsullarının bazar tələbinə uyğunlaşdırılmasının əhəmiyyətli olduğu müəyyən edilmişdir. Mövcud vəziyyətin təhlili göstərmişdir ki, mədəniyyət sahələrinin inkişafı üzrə vahid və sistemli yanaşmanın gücləndirilməsinə ehtiyac vardır. Bu baxımdan mədəniyyət sahəsinin iqtisadi potensialının reallaşdırılması idarəetmə mexanizmlərinin təkmilləşdirilməsindən asılıdır;
- 9. Azərbaycanda mədəniyyət sahəsinin maliyyələşdirilməsində dövlət büdcəsinin əsas mənbə kimi çıxış etdiyi və alternativ maliyyə mənbələrinin kifayət qədər inkişaf etmədiyi müəyyən edilmişdir. Eyni zamanda, mədəniyyət sahəsinə ayrılan dövlət vəsaitlərinin uzunmüddətli inkişaf məqsədləri, sahələrin iqtisadi potensialı və sosial əhəmiyyəti nəzərə alınmaqla daha səmərəli

istiqamətləndirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir;

- 10. Mədəniyyət sahəsinin maliyyə təminatının genişləndirilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlığın inkişaf etdirilməsi, özəl investisiyaların və digər alternativ maliyyələşmə mexanizmlərinin cəlb edilməsi imkanlarının mövcud olduğu müəyyən edilmişdir;
- 11. Beynəlxalq təcrübənin müqayisəli təhlili göstərmişdir ki, mədəniyyət və yaradıcı sahələrin inkişafında dövlət siyasəti ilə yanaşı, özəl sektor, rəqəmsal texnologiyalar, insan kapitalı, yaradıcı sahibkarlıq və beynəlxalq bazarlara çıxış mexanizmləri mühüm rol oynayır. Bu təcrübənin Azərbaycan şəraitinə uyğunlaşdırılması mədəniyyət sahəsinin iqtisadi potensialının artırılması üçün imkan yaradır. Dissertasiyada xüsusilə Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, Cənubi Koreya və Türkiyənin təcrübələri araşdırılmışdır;
- 12. İşğaldan azad edilmiş ərazilərin zəngin tarixi-mədəni irsi və yaradıcı potensialı nəzərə alınmaqla həmin ərazilərdə mədəniyyət sahəsinin inkişafının regional iqtisadi şaxələndirmənin istiqamətlərindən birinə çevrilə biləcəyi müəyyən edilmişdir. Bunun üçün mədəni irsin inventarlaşdırılması və bərpası, müasir mədəniyyət müəssisələrinin yaradılması, mədəniyyət turizminin inkişafı, yaradıcı sənayelərin formalaşdırılması və ixtisaslı kadr hazırlığının təmin edilməsi imkanları əsaslandırılmışdır.

Təklif və tövsiyələr

- Mədəniyyət sahələrinin beynəlxalq səviyyədə sənaye kimi qəbul olunduğunu nəzərə alaraq ölkəmizdə də iqtisadi kontekstdə "mədəniyyət sahəsi" termininin "mədəniyyət sferası" ifadəsi ilə dəyişdirilməsini məqsədəuyğun hesab edirik;
- Beynəlxalq təcrübəyə əsaslanan və mədəniyyətin ölkəmizdə inkişaf prespektivi olan bütün sahələrini əhatə edən mədəniyyət siyasətinin formalaşdırılması onların gələcək inkişaf istiqamətlərini müəyyən etməkdə və bu istiqamətdə əsaslı islahatlar aparılmasını şərtləndirə bilər. Bunun üçün mədəniyyət (və ya kreativ) sənayelərin inkişafı istiqamətində dövlət proqramlarının və ya strateji yol xəritələrinin yaradılması məqsədə uyğundur;

- Mədəniyyət sahələrinin kölgə iqtisadiyyatı fonunda inkişafının qarşısı alınmalıdır. Mədəniyyət sahələri ilə məşğul olan və buradan gəlir əldə edən şəxsləri fiziki şəxs kimi qeydiyyata alaraq həm ölkə büdcəsinin gəlirlərini artıra, həm də mədəniyyət sahəsində məşğul olanların siyahıyaalınmasını təmin etmək mümkündür;
- Bu sahədə düzgün statistik məlumatların hazırlanmasında Mədəniyyət Nazirliyi, Dövlət Statistika Komitəsi və Dövlət Vergi Xidmətinin birgə fəaliyyəti zəruridir;
- Mədəniyyətin sahələri üzrə araşdırmaların aparılması məqsədə uyğundur. Mədəniyyət sahələri üzrə mütəxəssislər tərəfindən onların ölkəmizdəki inkişaf səviyyəsi, tarixi, iqtisadiyyata verə biləcəyi töhfələr, idarə edilmə üsulları, maliyyələşmə şərtləri ayrıca araşdırılmaqla onların inkişaf konsepsiyaları yaradılmalıdır;
- Mədəniyyət sahəsi üzrə təhsil səviyyəsi yüksəldilməlidir. Hazırda mədəniyyət sahəsi üzrə təhsil verən 3 ali məktəb var ki, burada əsasən mədəniyyətin musiqi, teatr kimi sahələrində tədris daha effektiv olsa da, digər sahələrədə və həmçinin mədəniyyət sahələrinin inkişafı ilə bağlı olan bir çox sahələrdə tədrisin keyfiyyəti çox aşağıdır. Bu səbəbdən təhsil ocaqlarında yeni üsullarla tədris həyata keçirilməli və yeni ixtisaslar yaradılmalıdır;
- Mədəniyyət sahəsi üzrə ali təhsil müəssisələri Təhsil və Elm Nazirliyi tabeliyindən çxarılaraq Mədəniyyət Nazirliyinin tabeliyinə verilməlidir. Hazırda ölkənin bu sahələr üzrə təhsil verən universitetlərindən biri olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Təhsil və Elm Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Bu universitetin Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsi mədəniyyət sahəsində təhsilin ölkəmizdəki tələblə uyğunlaşdırılmasına və həmçinin burada idarəetmənin gücləndirilməsinə müsbət təsir göstərər;
- Mədəniyyət sahəsi üzrə yeni maliyyə mənbələrinin tapılmasında dövlət və özəl əməkdaşlığı həyata keçirilməlidir. Hazırda ölkəmizdə mədəniyyət sahəsinin maliyyələşməsi əsasən dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilir. Bu isə ölkə büdcəsinin xərclərinin artmasına və mədəniyyət sahəsinin dövlətdən asılılığına gətirib çıxarır. Bunun qarşısını almaq üçün isə özəl sektorun diqqətini mədəniyyət müəssisələrinə cəlb etmək zəruridir.

Bu istiqamətdə dövlət özəl sektorla birgə hərəkət etməli və iri sahibkarlıq subyektləri ilə birgə mədəniyyət sahələrinin inkişafı istiqamətində işlər (prodakşn şirkətlərin yaradılması və s.) həyata keçirməlidir;

- Maliyyə mənbələrinin genişləndirilməsi istiqamətində dövlət tərəfindən özəl sektora güzəştlər tətbiq edilməlidir;
- Mədəniyyət sənayesinin inkişafı istiqamətində yeni qurumların və ya agentliklərin yaradılması – bu qurum və agentliklər vasitəsilə mədəniyyət sahələrinin tanıdılması, onların inkişafı və dəstəklənməsi işlərinin həyata keçirilməsi bu sferada canlanmaya səbəb ola bilər;
- Əhalidə mədəniyyət sahələrinə olan marağın artırılması istiqamətində davamlı təbliğat tədbirlərinin həyata keçirilməsi – buraya əhaliyə uşaqlıq dövründən mədəniyyətin rolunun, əhəmiyyətinin aşılanması, yetkin əhalidə maraq yaratmaq üçün müxtəlif ödənişsiz tədbirlərin keçirilməsi, mədəniyyət obyektlərində endirimlərin edilməsi və s. faydalı olardı;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədəniyyət və yaradıcı sənayelərə əsaslanan regional inkişaf modelinin formalaşdırılması zəruridir. Bu modeldə yerli icmaların iştirakı, mədəni irsin qorunması, turizm, yaradıcı sahibkarlıq, təhsil və məşğulluq komponentləri qarşılıqlı əlaqədə nəzərə alınmalıdır;
- Mədəniyyət sahəsinin iqtisadi potensialının daha səmərəli reallaşdırılması üçün dövlət qurumları, özəl sektor, mədəniyyət müəssisələri, təhsil müəssisələri, yaradıcı şəxslər və yerli icmalar arasında əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi məqsədəuyğundur.

Dissertasiya işinin əsas müddəaları, nəticə və təklifləri müəllifin aşağıdakı elmi məqalə və tezislərində əks olunmuşdur.

1. Cəmaləddin P.M., Pərviz S.H., Post-konflikt ərazilərdə iqtisadi səmərəliliyə əsaslanan mədəni quruculuq // - Bakı-Şuşa, "Mədəniyyətin İqtisadiyyatı: Şuşadan inkişaf impulsları" "Beynəlxalq elmi-praktiki konfrans"ın materialları, 2022, səh. 181-194 // susa_konfrans2022.pdf
2. Cəmaləddin P.M., Azərbaycanda muzeylər iqtisadiyyatın

tərkib hissəsi kimi // - Bakı: AMEA-ın xəbərləri, İqtisadiyyat Seriyası, 2022, No 2, səh. 70-79 // https://economics.org.az/images/fotos/xeberler_pdf/2022_2/7.Camaleddin.pdf.

3. Cəmaləddin P.M., Azərbaycan Respublikasında dəb sənayesi mədəni sənayelərin subsektou kimi // - Bakı, Qərbi Kaspi Universiteti Elmi Xəbərlər Elmi Juranlı, İctimai və texniki elmlər seriyası, 2023, No 4, ISSN 2789-4614, səh. 232-239 // https://doi.org/10.54414/AUKF8186.

4. Cəmaləddin P.M., Mədəniyyət sənayesi – iqtisadiyyatın qeyri-ənənəvi sahəsi kimi // - Bakı, XVI Beynəlxalq Elmi Araşdırmalar Konfransının materialları, 2023, ISSN 2663-4619, səh. 51-54 // https://doi.org/10.36719/2663-4619/2023/XVI.

5. Cəmaləddin P.M., Kinoteatrların mədəni-iqtisadi inkişafda rolu // - Bakı, İqtisadi artım və ictimai rifah Elmi Jurnalı 2024, No 1, ISSN 2707-9309, səh. 91-98 // https://doi.org/10.36719/2707-9317/01/91-98.

6. Cəmaləddin P.M., Film sənayesi iqtisadiyyatın subsektoru kimi və Azərbaycanda inkişaf səviyyəsi // - Bakı, AMEA Gənc Alim və Mütəxəssislər Şurası, Gənc Tədqiqatçı Elmi-praktiki jurnalı, 2024, No 2, səh. 80-86 // https://doi.org/10.59849/2409-4838.2024.2.80.

7. Cəmaləddin P.M., Mədəniyyət dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi // - Bakı, Gənc tədqiqatçıların VII Respublika elmi konfransının materialları, 2024, səh. 231-233 // https://www.au.edu.az/userfiles/uploads/e821e15e5b4d0666854919b4a742d22a.pdf

8. Jamaladdin P.M., Theaters as a sub-sector of cultural industry and their activity in Azerbaijan // Ankara, 12th International “Baskent” Congress on Social Humanities, Administrative, and Educational Sciences Proceedings Book, 2024, p. 637-649 // 10.5281/zenodo.11194274.

9. Jamaladdin P.M., Parviz S.H., Economic aspects of cultural industries in Azerbaijan // Atyrau, Bulletin of the Atyrau University, 2024, No. 3, ISSN 2790-332X, p. 179-192 // 10.47649/vau.24.v74.i3.16.

Dissertasiyanın müdafiəsi _____ 2026-cı il tarixində saat _____ Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: H.Cavid prospekti, 115, Bakı, Azərbaycan AZ 1143

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (economics.org.az).

Avtoreferat "____ " _____2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir

Çapa imzalanıb: 30.09.2026
Kağızın formatı: A5
Həcm: 45 387 işarə.
Tiraj: 100